# EPM-310 Wi-Fi Quraşdırma Təlimatı




**Gərginlik Tənzimləyici Elektrik Parametrləri Monitoru**

*EPM-310 cihazının internet üzərindən idarə olunma sxemi*

**Sənəd versiyası: v1.0**
**Tarix: 29 iyun 2026**

**© Lankon Mühəndislik Qrupu**

*Bu sənəd EPM-310-manual təlimatına əlavədir.*

## Mündəricat

1. Giriş və üstünlüklər ........ 2
**2. Quraşdırmaq üçün nə lazımdır?** ........ **3**
**3. Quraşdırma addımları** ........ **3**
**4. Cihaza sahibinin dəyişdirilməsi.** ........ **7**
**5. Quraşdırma tamamlandısa** ........ **7**
**6. Modem dəyişdirmə** ........ **7**
**7. Serverdə əmrlər.** ........ **7**
**8. Vacib məlumatlar** ........ **7**
**9. Tez-tez verilən suallar** ........ **8**
**Wi-Fi olmadan cihaz işləyirmi?** ........ **7**
**Cihaz artıq başqasının adına qeydiyyatdadırsa** ........ **7**
**Şifrəni unutduqda** ........ **8**
**Wi-Fi LED-i yanmırsa** ........ **8**
**Avtomatik yenidən qoşulma** ........ **8**
**Cihazın Wi-Fi şəbəkəsini (SVR_0075-...) görə bilmirəm** ........ **8**
**Quraşdırma səhifəsi avtomatik açılmır** ........ **8**
**Modem şifrəsini yazdım, amma bağlana bilmirəm** ........ **8**
**E-poçtuma məktub gəlməyib** ........ **8**
**Cihaz Wi-Fi bağlantısını tez-tez itirir** ........ **8**
**sine8.com saytına daxil ola bilmirəm** ........ **8**
**10. Son sənəd və əlaqə.** ........ **8**

## 1. Giriş və üstünlüklər

Bu sənəd, "EPM-310 Gərginlik Tənzimləyicisinin Elektrik Parametrləri Monitoru" təlimatına ("EPM-310-manual") əlavədir. Mətnin həm istifadəçilər, həm də süni intellekt tərəfindən asanlıqla mənimsənilməsi üçün əyani və praktiki şəkillərlə təchiz edilmişdir.

Daxili Wi-Fi modulu sayəsində EPM-310 internet üzərindən məsafədən izlənilə və idarə edilə bilir. Bu üstünlük uzaqdan idarəetmə və rabitə üçün lazım olan əlavə xarici cihazların sayını minimuma endirir; belə ki, "RS-485 Modbus RTU" və "Ethernet SNMP" əlavə qurğularının istifadəsinə artıq ehtiyac qalmır. Həmçinin, hər hansı bir nasazlıq yaranarsa, cihaz xəta barədə məlumatı həm istifadəçiyə, həm də süni intellekt əsaslı servis mərkəzinə anında ötürür.

Cihazın kontrolu və idarə olunması üçün heç bir tətbiq quraşdırmağa ehtiyac yoxdur. Gündəlik istifadə etdiyiniz Chrome, Safari, Edge, Firefox kimi standart brauzerlərdən istifadə edə bilərsiniz.

Evinizdəki modem, mobil telefon və digər internetə çıxışı olan rabitə qurğularında olduğu kimi, hər bir EPM-310 cihazının daxilindəki Wi-Fi modulunun da özünəməxsus unikal ID nömrəsi (Eyniləşdirmə nömrəsi) mövcuddur. Cihazı dünyanın istənilən nöqtəsindən idarə edə bilmək üçün, quraşdırıldığı məkanda onun yaxınlıqdakı modemə bir dəfəyə məxsus inteqrasiya olunması (qoşulması) lazımdır. Eyniylə mobil telefonlarda olduğu kimi, cihaza idarəetmə hüququnun verilməsi üçün mövcud bir e-poçt ünvanının sistemə tanıdılması tələb olunur.

**Diqqət:** EPM-310 cihazı fabrikdən Wi-Fi modulu 29 nömrəli servis menyusundan aktiv halda buraxılır. Cihaza qidalanma verildikdə, ön paneldəki Wi-Fi LED-inin yandığı, yəni Wi-Fi rabitəsinin aktiv olduğu görünər. Bu parametr menyudan söndürüldükdə, cihazın Wi-Fi rabitəsi işləməz.

## 2. Quraşdırmaq üçün nə lazımdır?

Quraşdırmaya başlamadan əvvəl aşağıdakıların hazır olduğundan əmin olun:

- EPM-310 cihazı (qidalanma verilmiş, Wi-Fi LED-i yanır)
- Bir telefon, planşet və ya kompüter (Wi-Fi dəstəkli)
- İnternetə çıxışı olan bir modem (evinizin və ya iş yerinizin modemi)
- Modeminizin Wi-Fi şifrəsi
- Bir e-poçt adresi (Gmail, Hotmail, Yahoo və s.)

**Diqqət:** Modeminizin Wi-Fi şifrəsini bilmirsinizsə, modemin arxasındakı etiketdə və ya internet provayderinizdən öyrənə bilərsiniz.

## 3. Quraşdırma addımları

Aşağıdakı addımları ardıcıl olaraq yerinə yetirin. Hər addımda ekranda gördüyünüz şəkillərlə müqayisə edin.

**Addım 1: Cihazın Wi-Fi şəbəkəsini tapın**

Telefonunuzda (və ya kompüterinizdə) Wi-Fi ayarlarını açın.

Ətrafda olan Wi-Fi şəbəkələrinin siyahısı görünəcək.

Siyahıda adı belə olan bir şəbəkə axtarın: SVR_0075-XXXXXX

(XXXXXX hissəsi hər cihazda fərqlidir. Məsələn: SVR_0075-262A0A)




### Addım 2: Cihazın Wi-Fi şəbəkəsinə qoşulun

SVR_0075-XXXXXX şəbəkəsinə toxunun.

Şifrə xanasına aşağıdakı şifrəni yazın: 12345678

Sonra "Sonrakı" (və ya "Bağlan") düyməsinə basın.

*Şəkil 3  Cihazın Wi-Fi şifrəsini daxil edin və "Sonrakı" basın*

**Diqqət:** Bu şəbəkəyə qoşulduqda internet əlaqəniz müvəqqəti kəsiləcək. Bu normaldır — quraşdırma bitdikdən sonra əvvəlki internetinizə avtomatik qayıdacaqsınız.




### Addım 3: Modeminizi seçin

Cihazın Wi-Fi şəbəkəsinə qoşulduqdan sonra, avtomatik olaraq quraşdırma səhifəsi açılacaq.

**Diqqət:** Əgər səhifə uzun müddət avtomatik açılmazsa, brauzeri açın və ünvan xanasına 192.168.4.1 yazıb Enter basın.

Açılan səhifədə ətrafda olan bütün modemlərin siyahısı görünəcək. Siyahıda öz modeminizin adını tapın və üzərinə basın.

*Şəkil 4*

*Mövcud modemlərin siyahısı.*

*Öz modeminizin adını seçin.*

**Məsləhət:** Siyahıda modeminizin adını tanıya bilmirsinizsə, modemin üstündəki etiketdə yazılmış adı yoxlayın.




## Addım 4: Modeminizin şifrəsini daxil edin

Modeminizi seçdikdən sonra şifrə pəncərəsi açılacaq.

Modeminizin Wi-Fi şifrəsini yazın və "Connect" düyməsinə basın.

**Diqqət:** Şifrəni daxil edərkən böyük/kiçik hərfə diqqət edin. Yanlış şifrə daxil etsəniz, bağlantı qurulmayacaq.

*Şəkil 5 — Modeminizin Wi-Fi şifrəsini yazın və "Connect" basın*




Şifrə düzgün olarsa, ekranda yaşıl rəngdə "Network Added Successfully!" yazısı görünəcək. Bu, cihazınızın internetə uğurla qoşulduğu deməkdir.

*Şəkil 6*

*Cihaz modemə uğurla qoşuldu*




## Addım 5: E-poçt adresinizi yazın

Cihaz modemə qoşulduqdan sonra, ekranda e-poçt adresi daxil etmə xanası açılacaq. Bu e-poçt adresi cihazı idarə edəcək şəxsin e-poçt adresi olmalıdır.

E-poçt adresinizi yazın və "Submit" düyməsinə basın.




*Şəkil 7*

*E-poçt adresinizi yazın və "Submit" basın*

**Diqqət:** Hər cihaz yalnız bir e-poçt adresinə bağlana bilər.

Kim cihazı idarə edəcəksə, onun e-poçt adresi yazılmalıdır.

## Addım 6: E-poçt adresini təsdiqləyin

Sistem yazdığınız e-poçt adresini sizə göstərəcək.

Ünvanın düzgün yazıldığını yoxlayın.

Düzgündürsə — "Confirm" düyməsinə basın.
Səhv varsa — "Edit" düyməsinə basıb düzəldin.




*Şəkil 8*

*E-poçt adresinizin düzgünlüyünü yoxlayın və "Confirm" basın*

Təsdiqlədikdən sonra "Registration successful!" mesajı görünəcək:




*Şəkil 9*

*Qeydiyyat uğurla tamamlandı*

Ardından quraşdırmanın tamamlandığını bildirən yeni pəncərə açılacaq:




*Şəkil 10*

*Quraşdırma tamamlandı!*

*Modem adı,*

*cihaz ID-si*

*və e-poçt adresi göstərilir.*

## Addım 7: E-poçtunuzu yoxlayın

İndi e-poçt qutunuzu açın.

sine8.com-dan "Set Your Password" başlıqlı bir məktub gəlmiş olacaq.

*Şəkil 11*

*E-poçt qutunuzda sine8.com-dan gələn məktub*

Bu məktubu açın.




İçindəki "Set Your Password" düyməsinə basın:

*Şəkil 12*

*Məktubu açıb "Set Your Password" düyməsinə basın*

**Diqqət:** Məktub gəlməyibsə,

spam/junk qovluğunu yoxlayın.

15 dəqiqə ərzində məktubu açıb şifrə təyin etməyiniz lazımdır.

Düymə sizi sine8.com saytına aparacaq.




## Addım 8: sine8.com-a girişiniz üçün şifrə təyin edin

Açılan səhifədə:

"Yeni Şifre" xanasına istədiyiniz şifrəni yazın (ən azı 8 simvol).
"Şifreyi Onayla" xanasına eyni şifrəni təkrar yazın.
"Şifre Belirle" düyməsinə basın.

*Şəkil 13*

*Yeni şifrənizi iki dəfə yazıb "Şifre Belirle" basın*

**Məsləhət:** Bu şifrəni və e-poçt adresi yadda saxlayın!

Bundan sonra sine8.com saytına daxil olarkən e-poçt adresiniz və bu şifrə ilə giriş edəcəksiniz.




*Hər şey uğurla alındısa cihazın internet səhifəsi avtomatik açılacaq. Hər hansı xəta səbəbindən cihazın səhifəsi açılmırsa, və ya şifrənizi tapa bilmirsinizsə birbaşa bu səhifəyə girin* https://sine8.com/login

*E-poçt ünvanı xanasında cihazı qeydiyyatdan keçirdiyiniz  e-poçt ünvanını yazın.*

*Şifrəmi unutdum? simgəsinə basın*

*E-poçt adresinizə girib*

**‘Addım 8: sine8.com üçün şifrə təyin edin’** olan proseduru təkrarlayaraq, yeni şifrə təyin edin




## 4. Cihaza sahibinin dəyişdirilməsi

Əgər cihazın unikal ID (IMEI) nömrəsi hər hansı bir e-poçt ünvanı ilə artıq qeydiyyatdan keçibsə, eyni cihazı təkrarən fərqli bir e-poçt ünvanı ilə qeydiyyata almaq üçün **info@sine8.com** ünvanına yazılı müraciət göndərməli və vəziyyəti izah etməlisiniz. Müvafiq araşdırmadan sonra, zərurət yaranarsa, cihazın yenidən qeydiyyatı üçün lazımi imkan yaradılacaqdır.

## 5. Quraşdırma tamamlandısa

Təbrik edirik! Cihazınız artıq internetə qoşulub və idarəetmə sisteminə qeydiyyatdan keçib.

**Bundan sonra cihazınıza daxil olmaq üçün:**

- Brauzerinizi açın (Chrome, Safari, Edge, Firefox).
- Ünvan xanasına sine8.com yazıb Enter basın.
- E-poçt adresiniz və təyin etdiyiniz şifrə ilə daxil olun.

Cihazınızı telefon, planşet və ya kompüterdən — dünyanın istənilən yerindən izləyə və idarə edə bilərsiniz.

## 6. Modem dəyişdirmə

Modeminiz dəyişdikdə (yeni modem aldınız, yeni evə köçdünüz və s.) quraşdırmanı tamamilə başdan etməyə ehtiyac yoxdur.

**Yeni modemi əlavə etmək üçün:**

- Telefonunuzda Wi-Fi ayarlarını açın.
- Cihazın Wi-Fi şəbəkəsinə (SVR_0075-XXXXXX) yenidən qoşulun (şifrə: 12345678).
- Açılan quraşdırma səhifəsində yeni modeminizin adını seçin və şifrəsini daxil edin.

> **Məsləhət:** Cihaz yaddaşında 8-ə qədər modem məlumatı saxlaya bilər. 9-cu modem əlavə edildikdə, ən köhnə modem yaddaşdan avtomatik silinər.

## 7. Serverdə əmrlər

1. Server üzərindən cihazı çıxış kontaktorunu söndürmək mümkündür; əgər bu əmrdən imtina edilərsə, cihaz özü lazım gəldikdə söndürər.
2. Çıxış gərginliyini dəyişdirmək mümkündür
3. Çıxış gərginliyinin həssasiyyətini dəyişdirmək mümkündür

## 8. Vacib məlumatlar

Cihazda nasazlıq olduğu durumda, internet bağlantısı varsa, cihaz süni intellekt mərkəzinə cihazın unikal nömrəsini, xəta saatını, xəta nömrəsini göndərər. Serverdə öz növbəsində qeydiyyatdan keçmiş e-poçt adresinə hesabat göndərəcəkdir (sine8.com serveri vasitəsilə).

## 9. Tez-tez verilən suallar

### Wi-Fi olmadan cihaz işləyirmi?

Bəli. Wi-Fi əlaqəsi kəsildikdə belə, cihaz öz əsas işini (gərginlik tənzimləmə, qoruma funksiyaları) tam normal şəkildə davam etdirir. Wi-Fi yalnız uzaqdan izləmə və idarəetmə üçündür.

### Cihaz artıq başqasının adına qeydiyyatdadırsa

Əgər cihaz əvvəllər başqa birinin e-poçt adresi ilə qeydiyyatdan keçibsə, yeni istifadəçi olaraq qeydiyyat edə bilməzsiniz. Bu halda admin@sine8.com ünvanına müraciət edin və cihazın ID nömrəsini bildirin.

### Şifrəni unutduqda

sine8.com saytının giriş səhifəsində "Forgot Password?" (Şifrəni unutdum) bağlantısına basın. E-poçt adresinizi yazın və yeni şifrə alın.

### Wi-Fi LED-i yanmırsa

Cihazın servis menyusundan Menü 29-un 1 (açıq) olduğunu yoxlayın. Əgər 0-dırsa, 1 edin və SET düyməsinə basın.

### Avtomatik yenidən qoşulma

Elektrik kəsilməsi və ya modem yenidən işə düşməsi halında, cihaz yaddaşında saxladığı modem məlumatlarından istifadə edərək avtomatik olaraq internetə yenidən qoşulur. Sizin heç nə etmənizə ehtiyac yoxdur.

### Cihazın Wi-Fi şəbəkəsini (SVR_0075-...) görə bilmirəm

- Wi-Fi LED-inin (mavi) yanıb-yanmadığını yoxlayın.
- Cihaza yaxınlaşın (ən çox 10–15 metr məsafədə olun).
- Telefonunuzun Wi-Fi-sinin açıq olduğundan əmin olun.

### Quraşdırma səhifəsi avtomatik açılmır

- Brauzerinizi açın və ünvan xanasına 192.168.4.1 yazın.
- Telefonunuzun hələ cihazın Wi-Fi şəbəkəsinə qoşulu olduğundan əmin olun.

### Modem şifrəsini yazdım, amma bağlana bilmirəm

- Şifrədə böyük/kiçik hərfə diqqət edin — hərflər düzgün olmalıdır.
- Modeminizin 2.4 GHz tezliyində olduğundan əmin olun (5 GHz dəstəklənmir).
- Modeminizin açıq və işlək olduğunu yoxlayın.

### E-poçtuma məktub gəlməyib

- Spam / Junk qovluğunu yoxlayın.
- E-poçt adresini düzgün yazdığınızdan əmin olun.
- Bir neçə dəqiqə gözləyin — bəzən gecikmə ola bilər.

### Cihaz Wi-Fi bağlantısını tez-tez itirir

- Cihazı modema daha yaxın yerləşdirin.
- Modemin düzgün işlədiyini yoxlayın.
- Modem ilə cihaz arasındakı məsafəni azaldın.

### sine8.com saytına daxil ola bilmirəm

- E-poçt adresinizi və şifrənizi düzgün yazdığınızdan əmin olun.
- Şifrəni unutmusunuzsa, "Forgot Password?" bağlantısından yeni şifrə alın.
- Problem davam edərsə, admin@sine8.com ünvanına yazın.

## 10. Son sənəd və əlaqa.

| | |
|---|---|
| **Veb-sayt 1** | https://sine8.com/documents |
| **Veb-sayt 2** | https://github.com/Sabir392/devices |
| **Əlaqə** | |
| **E-mail** | info@sine8.com |
| **E-mail** | 3924877@gmail.com |